UOT 32:93/94

QURBAN MƏMMƏDOV
Bakı Dövlət Universitetinin dosenti
qurbann.mammadov@mail.ru

YAXIN ŞƏRQDƏ GEOSİYASİ MARAQLARIN TOQQUŞMASI MİLLİ MƏTBUATIN GÜNDƏMİNDƏ

DOI: https://doi.org/10.36719/2708-065X/105/140-147

Minilliklərin qovşağında strateji və geosiyasi əhəmiyyətli mövqelərə malik, dünyanın enerji resursları ilə təminatında mühüm rol oynayan, beynəlxalq və regional kommunikasiya xəttlərinin qovşağında yerləşən və Qərbin inkişaf etmiş ölkələri üçün böyük bazar olan Yaxın və Orta Şərq regionu ətrafında "böyük oyunların" başlaması təsadüfi deyildi. Dünyanın cahangir dövlətləri regionun enerji resurslarını, xammal mənbələrini və bazarlarını bölüşdürmək uğrunda amansız mübarizəyə başlamışdılar ki, bu mübarizə mümkün hərbi-siyasi yollarla aparılırdı. Bu bölgüdə üç başlıca dövlət – ABŞ, Çin və Rusiya iştirak etsə də, ABŞ hegemonluğu əldən verməməyə, digər dövlətləri ümumiyyətlə regiondan sıxışdırıb çıxarmağa çalışırdı ki, bunun üçün müxtəlif layihələrdən, üsul və vasitələrdən istifadə edirdi.Regionda gedən proseslər dünyanın bütün kütləvi informasiya vasitələrinin, sosial şəbəkələrin, o cümlədən də milli mətbuatın diqqət mərkəzində idi və qalmaqdadır. Müəyyən çatışmazlıqlara baxmayaraq milli mətbuat analitik təhliillər apararkən bir tərəfdən Azərbaycan Respublikasının geosiyasi maraqlarından çıxış edir, digər tərəfdən isə bitərəf mövqe sərgiləməklə baş verməkdə olanları analiz etməyə çalışırdı ki, məqalədə qarşıya qoyulmuş məqsədə uyğun olaraq araşdırmalar aparılır.

Açar sözlər: Yaxın və Orta Şərq, böyük dövlətlər, milli mətbuat, geosiyasi rəqabət, enerji resursları, demokratiya, sərhədlərin dəyişdirilməsi, hərbi-siyasi mübarizə, yeni qüvvələr tarazlığı, puç olmuş arzular.

Giriş. Uzun illər boyu toplanmış fakt və materialların təhlili beynəlxalq münasibətlərin son yüzillik dövrü ilə bağlı bir sıra nəticələrə gəlməyə imkan verir. XIX əsrin sonu – XX əsrin əvvəllərində baş verənləri elmi-politoloji fikrin nümayəndələri sonralar "böyük oyun" adlandırmışdılar. Belə ki, həmin dövrdə baş verənlər kiçik müharibələrdən keçməklə I dünya müharibəsinə gətirib çıxardı. Analoji vəziyyət XX əsrin sonları – XXI əsrin əvvəllərində baş verən "yeni böyük oyunlarda" özünü göstərməkdədir, belə görünür müasir dünya da qlobal dünya müharibəsinə doğru getməkdədir. O dövrdə də, hazırda da hadisə və proseslərin episentrində Şərqdə cərəyan etməkdə olan hadisələr dururdu və durmaqdadır.

Yaxın və Orta Şərqin dünya düzənində yeri və əhəmiyyəti haqqında olduqca çox şey deyilib, deyilməkdədir, yazılıb və yazılmaqdadır. Bu region qədim sivilizasiyaların meydana gəldiyi məkan, dünya dinlərinin pərvəriş tapdığı elə nadir mərkəzlərdən biridir ki, burada türk, ərəb və fars ünsürləri qaynayıb qarışmışdır. Yaxın Şərq və Şimali Afrikanın zəngin yeraltı və yerüstü sərvətləri, xammal ehtiyatları və enerji resursları tarix boyu cahangir dövlətlərin diqqətində olmuş və hazırda da belədir. Regiondan keçən çoxsayli kommunikasiyaxəttləri inkişaf etmiş dövlətlərə, o cümlədən avropalılara, ruslara və amerikalılara böyük bazarlar vəd edirdi. Məhz buna görə də müstəmləkəçi Avropa, imperialist Rusiya və kapitalist Amerika burada öz təsirini qorumağa həmişə can atırdılar.

Azərbaycanda sovet hakimiyyətinin qurucularından doktor N.Nərimanov 1920-ci il sentyabrın 1-də Bakı şəhərində Şərq xalqlarının I qurultayını açarkən dünyanın müxtəlif ölkələrindən gələn 2 min nəfərdən yuxarı nümayəndəyə üzünü tutaraq demişdi: "Bizə ilk dəfə mədəniyyət və mənəviyyat anlayışlarını bəxş edən Qocaman Şərq göz yaşları tökəcək, beynəlxalq imperializmin ona vurduğu yaralardan danışacaqdır" (18). Zaman dəyişsə də məkan həmin məkandır ki, yeni personajlarla çıxış etməkdədir. Təsadüfi deyildir ki, hazırda regionda baş verməkdə olanlar müasir dünyanın kütləvi informasiya vasitələrinin, o cümlədən də milli mətbuatın gündəmindən çıxmır.

Mövcud geosiyasi fikrə və qaynaqlara görə, Asiyanın qərbində yerləşmiş Yaxın və Orta Şərq regionuna (Midl East) Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Əfqanıstan, Ürdün, İraq, İran, İsrail, Yəmən, Kipr, Küveyt, Livan, Misir, Oman, Səudiyyə Ərəbistanı, Suriya, Türkiyə və hələ müstəqil dövlət kimi tam formalaşmamış Fələstin (ümumilikdə 18 dövlət) daxildir. İran və Əfqanıstan Orta Şərqə, digər dövlətlər isə Yaxın Şərqə aid edilirlər. Regional bölgü, həmçinin regionun adı şərtidir (tarixən bu region Ön Asiya adlandırılırdı) və müxtəlif müəlliflər tərəfindən müxtəlif şəkildə dəyişdirilir. Geosiyasi, mədəni və coğrafi termin kimi Yaxın və Orta Şərq anlayışınıingilis dilində ilk dəfə1902-ci ildə ABŞ dəniz donanmasının admiralı olmuş Alfred Mehen (1840-1914) işlətmişdir. On səkkiz dövlətin (o cümlədən, 13 ərəb dövlətinin) daxil olduğu Yaxın və Orta Şərq regionunun ərazisi 7,3 mln. kv.km, əhalisi isə 350 mln. nəfərdir (8, s. 5).

Müasir dövrdə Qərb politoloji fikri tərəfindən Avrasiya adlandırılan (xüsusilə Zb.Bzejinski) bu regionun hüdudlarına Cənubi Qafqaz və Mərkəzi Asiya dövlətləri aid edilirdi ki, Yaxın və Orta Şərqin 18 dövləti də daxil olmaqla 28 dövləti əhatə edir, dünya əhalisinin ¾ hissəsi və dünyanın enerji resurslarının 80 faizdən çoxu bu regionda yerləşir ki, bu amillər onu dünya diplomatiyasının episentrinə çevirmişdir.

Beynəlxalq siyasi analitiklər iddia edirlər ki, Yaxın Şərq və Şimali Afrika regionunda "soyuq müharibə" dövründən sonra geosiyasi proseslərin üçüncü mərhələsi başlamışdır ki, bu mərhələnin spesifik xüsusiyyəti regionun yenidən nüfuz dairələrinə bölünməsi uğrunda mübarizənin başlanması ilə əlaqədardır. Hazırda da davam etməkdə olan bu mübarizəni başlayan SSRİ-nin dağılmasından sonra super gücə çevrilən ABŞ-dır. ABŞ-ın İraqa 2003-cü il müdaxiləsi və yaratdığı xaos tezliklə ərəb politoloji fikri tərəfindən "neokolonial quldurluq dövrü" kimi adlandırılmışdı.

Milli və Türkiyə mətbuatında ABŞ-ın Yaxın Şərqdə reallaşdırmağa çalışdığı, lakin məğlub layihə hesab edilən "Böyük Orta Şərq projesi" (BOŞ) lehinə və əleyhinə geniş şəkildə təhlil edilən analitik materiallara rast gəlmək mümkündür. Böyük Orta Şərq layihəsi əslində ABŞ-ın təklif etdiyi yeni geosiyasi fenomendir. Qəribədir ki, Qərb müəlliflərinin Böyük Orta Şərqə aid etdikləri Cənubi Qafqaz dövlətlərindən yalnız Ermənistan respublikası orada yer alır ki, biz bunu təklif edilən ayrı-ayrı xəritələrdə görürük (17).Qeyd edək ki, hələ keçən əsrin sonlarından haqqında danışılan, 2001-ci ildən ortaya çıxan "Böyük Orta Şərq" layihəsi Yaxın Şərqin xəritəsinin dəyişdirilməsini nəzərdə tuturdu (3). Ancaq kifayət qədər mübahisəli olan və hətta bir sıra hallarda inkar olunan bu layihə Qərbdən Mərakeşin Atlantik sahillərindən başlayaraq Şərqdə Pakistanın şimalındakı əraziləri, şimalda Türkiyənin Qara dəniz sahillərindən cənubda Ədən və Yəmənə qədər uzanan bölgəni əhatə edirdi. Layihənin məqsədi müsəlman ölkələrində demokratik şərait yaratmaq və azad ticarət bazarları formalaşdırmaqdır. "Böyük Yaxın Şərq" layihəsi ABŞ-da 2001-ci il sentyabrın 11-də "Əl-Qaidə" tərəfindən törədilmiş terror hücumlarının ardınca hazırlandığı deyilsə də, ehtimal olunan əsasları yəqin ki, keçən əsrin 90-cı illərinin əvvəllərində baş vermiş körfəz böhranı dövründən qoyulmuşdu. Kütləvi informasiya vasitələrində isə layihənin Corc Buşun prezidentliyi dövründə (2001-2009-cu illərdə) Vaşinqtonun region siyasətində yer aldığı qeyd olunurdu (5).

Milli mətbuat ABŞ-ın sərgilədiyi layihənin mahiyyətini müəyyənləşdirmək üçün xüsusilə Avropa, Türkiyə və ərəb mənbələrindən götürülmüş yazıların tərcüməsi və təhlilini aparmaqla onun hədəflərini aydınlaşdırmağa çalışırdı. 525-ci qəzetin 29 iyun 2015-ci il tarixli sayında yer almış "ABŞ-ın Yaxın Şərq siyasəti:yalanın təntənəsi" sərlövhəli yazıda ABŞ silahlı qüvvələrinin zabiti Ralf Petersinin 2005-ci ildə yazdığı və ordu jurnalında nəşr edilmiş məqalədə Aralıq dənizi hövzəsi ölkələrinin – Türkiyə, Əfqanıstan, Səudiyyə Ərəbistanı və Fars körfəzi dövlətlərinin sərhədlərinin dəyişdirilməsinin vacibliyi qeyd edilirdi (2).

Yaxın Şərqin ərəb ölkələrinə aid mətbuat orqanlarında regionda geosiyasi güclərin nüfuz dairələri uğrunda mübarizəsi ciddi şəkildə təhlil və ittiham edilirdi, lakin bu məsələdə Qərbin müttəfiqi qismində çıxış edən ölkələrin mətbuatı ilə əks mövqedə dayanan mətbuat fərqli münasibət sərgiləsə də bir məsələdə - "yeni müstəmləkəçiliyə" qarşı mübarizədə mövqelər birləşirdi. Belə ki, Misirin ən böyük mətbuat orqanlarından olan "Əl Əhram" və "Əl-Cümhuriyyə" qəzetlərində, habelə nüfuzlu "Asiya al Youm" internet nəşrində, Bağdadda ərəb dilində çıxan "Səda Əl Şimal" həftəlik siyasi qəzetində Qərbin avantürist region siyasəti kəskin tənqid edilirdi. "Əl-Əhram" qəzeti yazırdı ki, "ərəb

ölkələri özlərinə güvənməlidirlər, çünki Qərb dövlətləri ikiüzlüdürlər, buna görə də ərəb ölkələri ABŞ-ın Rusiyaya qarşı sanksiyalar siyasətini rədd etməlidilər"(19).

XXI əsrin əvvəllərində regionda yaranmış böhranlı vəziyyəti təhlil edən ərəb kütləvi informasiya vasitələrində gedən yazılarda deyilirdi ki, "bir çox Qərb siyasətçiləri başa düşə bilmirlər ki, Ukraynada bombalanmış Mariupol xarabalıqlarını görürkən fələstinlilər İzrail tərəfindən xarabalığa çevrilmiş Qəzzanı, suriyalılar - Hələb, Rakka və Homsu, iraqlılar isə Mosulu görürlər. Qəzzadakı fələstinlilər hələ də İsrailin bombardımanlarından sonrakı xarabalıqları axtarırlar". Avropada və Yaxın Şərqdə baş verənlər arasında paralellər aparan ərəb mətbuatı yazırdı ki,"Polşaya qaçan ukraynalı qaçqınları görən ərəblər Livan, İordaniya və Türkiyəyə qaçan suriyalıların taleyini düşünürlər. Fələstinlilər başlarına gələnfəlakəti, əhalinin 70%-nin qaçqın vəziyyətinə düşdüyü 74 il əvvəl baş vermiş dəhşətləri düşünürlər" (19). Fikrimizcə, Qərbin Avropada və Şərqdə baş verənlərə belə fərqli münasibəti ayrı-seçkilikdən daha çox sivilizasiyaların toqquşması anlamına gəlirdi.

Məhz belə münasibətin nəticəsi idi ki, ərəb mətbuatında ABŞ-ın xarici siyasət strategiyasında tədricən prioritetlərin dəyişməsi haqqında xəbər və analitik yazılar yer alırdı. Belə analitik yazılardan birində deyilirdi ki, Vaşinqtonun xarici siyasətində Asiya-Sakit okean regionu əsas prioritet təşkil etdiyi müasir dövrdə ABŞ yeni Yaxın Şərq hərbi kampaniyasına artıq əvvəllər olduğu kimi o qədər də müdaxilə etmir və etmək istəmir, çünki çoxillik İraq və Əfqanıstan konfliktləri ona baha başa gəlməkdən başqa heç bir dividend gətirmədi. Məqalədə Qərbin Yaxın Şərq siyasəti ilə bağlı verdiyi proqnozlar da diqqətçəkəndir. Belə ki, müəllifə görə, "ABŞ çətin ki, Yaxın Şərqdən tam əl çəkə,bu regiondan əl çəkmək dünyada fövqəldövlət statusundan imtinanı və özünütəcridə bərabərdir. Amerika siyasətçiləri də bunun fərqindədirlər. Lakin ABŞ-ın dini radikalizmi alovlandırmaq hesabına regionda öz hakim mövqelərini möhkəmləndirmək cəhdi onu öz niyyətinə qovuşdurmayacaqdır. Müasir dünyada anarxiya və qeyri-stabilliyin kütləvi yayılması qlobal xarakter və ölçü alacaq, deməli, bu proseslər ABŞ-a da sirayət edəcəkdir" (1).

Digər regionlarla yanaşı, Yaxın və Orta Şərqin bütün dövlətlərini öz sıralarına alan Avrasiyanın əhəmiyyəti təkcə zəngin iqtisadi resurslara, çoxsaylı kommunikasiya xəttlərinə malik olması ilə əlaqədar deyildi, bu regionun konkret olaraq 10 dövlət fəal geosiyasi mərkəz rolunda çıxış etməyə iddialı idi. Bunlar Almaniya, Fransa, Böyük Britaniya, Rusiya, Çin, Hindistan, Yaponiya, Türkiyə, Misir, İran kimi ölkələr idilər ki, materikin müxtəlif hissələrində geosiyasi maraqlarına uygun olaraq fəaliyyət göstərirdilər. Nəzərə almaq lazım idi ki, dünyada neft satan 10 dövlətin 5-i Yaxın Şərqdə yerləşirdi. Türk müəlliflərindən M.Əhmədə görə, "əsas məsələ odur ki, bu geosiyasi mərkəzlər ikiiki, üç-üç olmaqla ya müttəfiq, ya da birbaşa rəqiblər kimi düzülmüşdür. Deməli, təxminən Yaxın Şərq regionunda baş verən inqilablara da bu konteksdən yanaşmaq lazımdır. Dogrudur, xalqlar azadlıq ugurunda mübarizə aparır və bu da demokratiya fenomeni ilə ənənəvi siyasi islam ideologiyası konteksində baş verməkdədir" (16).

Türk müəlliflərindən Z.Yılmaz ABŞ-ın strateji layihəsi kimi təqdim olunan "Böyük Orta Şərq" layihəsinin yəhudi kökənli olmasını xüsusi vurğulayaraq aşağıdakı üç bəndi diqqətə çatdırırdı: "Bütün ərəb dövlətlərinin kiçik hissələrə bölünməsi İsrailin strateji düşüncəsində təkrarlanan bir anlayışdır. Məsələn, Haaretz-in hərbi müxbiri (və yəqin ki, İsraildə bu mövzuda ən məlumatlı adam) Zeev Şiff bir məqaləsində İraqda İsrail üçün baş verə biləcək ən yaxşı şeyin İraqın "şiə və sünni dövlətlərə və kürd tərəfi"nə bölünməsini vacib hesab edirdi".

Müəllifə görə, layihədə "Amerikada neokonservativ düşüncə ilə güclü əlaqə çox qabarıq görünür, bununla belə, ABŞ-n "qərbi sovet qoşunlarından qorumaq" yalanına rəğmən, hazırkı İsrail dövlətinin əsl məqsədi aydındır: imperiya İsrailini dünya gücünə çevirmək, yəni Şeronun məqsədi bütün dünyanı aldatdıqdan sonra amerikalıları da aldatmaqdır". Nəhayət, Z.Yılmaza görə, "layihə ilə bağlı məlumatlar qarışıqdır və ya saxtalaşdırılmışdır. Amerikanın İsrailə maliyyə yardımı da saf fantaziyadır. Lakin planın səmərəsiz olduğu və ya qısa müddətdə həyata keçirilə bilməyəcəyi əsas götürülsə də onu həyata keçirmək qərara alınmışdır. Bu plan 1890-1933-cü illərdə Almaniyada tətbiq olunan, Hitler və nasist hərəkatı tərəfindən uduzdurulmuş və Şərqi Avropa ilə bağlı məqsədlərini müəyyən edən geosiyasi ideyalara sədaqətlə yanaşır. Bu məqsədlər, xüsusən də mövcud dövlətlərin bölünməsi 1939-1941-ci illər arasında həyata keçirildi və yalnız qlobal ittifaqlar birliyi onların birləşməsinə bir

müddət mane oldu" (15). Deməli, ABŞ uzun müddət arzusu və iddiasında olduğu qlobal hegemonluğa nail olmağa Yaxın Şərqin geosiyasi xəritəsini dəyişməklə başlamaq qərarına gəlmişdi.

Müasir geosiyasi fikirə hakim olan başlıca anlayış ondan ibarətdir ki, bütün dünyaya hakim olmağın yolu Avrasiyaya hakim olmaqdan keçir ki, hazırda Qərb imperializmi bu yolu seçmişdir. Günümüzdə "yeganə super güc" mövqeyində olduğu üçün Avrasiya geosiyasətini detallandıran, buna görə strategiya müəyyənləşdirən və konkret addımlar atan tək ölkə ABŞ-dır. ABŞ müstəmləkəçiliyinin dünya hakimiyyəti üçün müəyyənləşdirdiyi və inkişaf etdirdiyi geosiyasət təkqütblü hakimiyyəti hədəfləməkdir. Amerikan ekspansiyasının dünya hakimiyyəti üçün Avrasiyaya yönəldiyini görən digər aparıcı güclər bu geosiyasi anlayışın reallaşmaması üçün mübarizə aparmaqda və ayrı-ayrı hallarda uğur qazanmaqdadır. Türk müəllifi Z.Yılmazın fikrincə, digər bir arqument isə ABŞ-ın reallaşdırmaq istədiyi Avrasiya geosiyasətinin günümüzdə böyük güclər arasındakı ziddiyyət və qarşıdurmalarıbütün kəskinliyi ilə üzə çıxarmasıdır (9).

Qeyd etməyə dəyər ki, milli KİV-də yer alan analitik yazılarda türk və qərb mətbuatından götürülmüş fakt və materiallara əsasən təhlillərin aparıldığını müşahidə etsək də xüsusilə beynəlxalq terrorizmin yaratdığı təhlükələrlə bağlı preventiv tədbiirlərin həyata keçirilməsində öncül mövqelərə malik olmuşuq. Belə ki, erməni terror-seperatçılıq siyasətindən əziyyət çəkən bir ölkənin rəhbəri kimi, Prezident H.Əliyev hələ 2001-ci il sentyabr hadisələrindən bir neçə il əvvəl beynəlxalq terrorizmə qarşı mübarizə ilə bağlı sərəncam imzalamışdı. Türk müəlliflərindən Altuğ Günal yazırdı ki, məhz həmin dövrdə ABŞ-ın ən əhəmiyyətli rəsmi strateji planlaşdırma mərkəzlərindən olan "Milli Müdafiə Universitet Milli Strateji Araşdırmalar İnstitutunun 1999-cu il strateji planında Taliban və Ussama Bin Laden haqqında qiymətləndirmələrində əsas diqqət Ladenə yönəldilmişdi, halbuki qlobal terrorizmin imkanları və təhdidləri "ən pisdir ssenarilərində" kifayət qədər yer almamışdı(3). Deməli, Əfqanıstan ssenarisi hələ hazırlıq mərhələsində idi. Fikrimizcə, I Körfəz böhranı əslində ABŞ-ın Yaxın Şərq strategiyasında başlıca "məşq" hesab edilə bilərdi.

"Böyük Orta Şərq" layihəsini yığcam olaraq ABŞ tərəfindən Yaxın Şərqin yenidən qurulması kimi mənalandıran mətbuat layihənin başlıca hədəflərinin müsəlmanlar yaşayan və əsasən vaxtilə Osmanlı imperiyasinin ərazisi olmuş bölgələrdə 1916-cı il Sayks-Piko sazişində olduğu kimi, yeni sərhədlərin cızılması olduğunu qeyd edirdi, fərq onda idi ki, bu bölgüdə Rusiya yer almamalı idi, baxmayaraq ki, regionda hər şey ABŞ-ın ssenarisi üzrə getmədi. Layihəninilk olaraq elan edilməsinə gəlincə, qeyd edə bilərik ki, onu 2003-cü ildə ABŞ-ın NATO nəzdindəki Daimi Təmsilçisi R.Nikolas Börns Praqada elan etmişdi.BOŞ layihəsi haqqında müxtəlif vaxtlarda ABŞ Dövlət katibinin köməkçisi Mark Grozman, habelə ABŞ prezidentinin o dövrdə milli təhlükəsizlik üzrə məsləhətçisi, sonralar isə Dövlət katibi olmuş Kondoliza Rays və digər rəsmilər məlumat vermişdilər. Keçmiş Dövlət katibi Kondoliza Rays çıxışların birindəəsas hədəfin "Mərakeşdən Çin sərhədlərinə qədər 22 ölkənin siyasi və iqtisadi coğrafiyasının dəyişdirilməsi" olduğu fikrini səsləndirmişdi (5). Qeyd edək ki, "Yeni Yaxın Şərq" layihəsi(ilk zamanlarda BOŞ layihəsi belə adlandırılırdı) haqqında ilk məqalələrdən biri elə bu adla 2002-ci ilin ortalarında şərqşünas Rafiq İsmayılov tərəfindən yazılmışdı (6).

Milli KİV-də 2016-cı ilə aid analitik yazıda ABŞ-ın ortaya qoyduğu layihəni aşağıdakı kimi səciyyələndirilirdi: "Dünya tarixinin bəlkə də ən hiyləgər planı yenə görünməmiş ikili standart, pis niyyət və qeyri-səmimi şəraitdə, bəzəkli şüarlar altında bütün insanların gözü önündə addım-addım baş verir. Şübhəsiz ki, hiyləgərcəsinə gedən belə təhlükəli planı təbii görüb qəbul etmək çox yanlışdır. Bu səbəbdən bu həqiqətləri dilə gətirərək cəmiyyətlər üzərində qurulan hiyləgər planlar haqqında insanları məlumatlandırmaq və buna qarşı özlərini müdafiə edəcək strategiyalar formalaşdırmaq çox vacibdir (12). "Düşünek.com" saytından götürülmiş qeyd edilən fikrin nə dərəcədə məntiqli və obyektiv olduğunu "ərəb baharı" hadisələri aydın şəkildə göstərdi.

Qeyd edək ki, Rusiyanı Yaxın Şərqdən uzaqlaşdırmaq üçün ABŞ-ın həyata keçirdiyi sanksiyalar, Rusiyanın beynəlxalq aləmdən təcrid edilməsi, Rusiya-Ukrayna müharibəsi, Rusiyanın dünya neft bazarından sıxışdırılması kimi üsullar ABŞ-a istədiyi səmərəni vermədi, deməli yalmız bir yol qalırdı: ABŞ Yaxın Şərq və postsovet məkanında nüfuz dairələrini Rusiya ilə bölüşməli və Rusiyanın böyük dövlət statusunun qaytarılmasına razılaşmalıdır.

Analitik-siyasi yazıları ilə məşhurlaşan "Səs" qəzeti isə Yaxın Şərqdə və Cənubi Qafqazda Türkiyənin güclü regional aktora çevrilməsi ilə bağlı prosesləri təhlil edərək yazırdı ki, Ankaranın

Yaxın Şərq siyasətini tənqid edənlər həmişə olmuş, analitik və ekspertlər Türkiyənin həmin regionda geosiyasi nüfuzunu itirməkdə olduğu haqqında proqnozlar vermişlər: məsələyə ümumi səviyyədə baxdıqda isə daha mürəkkəb və qeyri-müəyyənliklərlə dolu mənzərə görürük. "Həmin regionda dünyanın heç bir böyük dövlətinin davamlı və sabit nüfuza malik olmadığı məlum olur. Bu halda Ankara hansı addımları atmalıdır? Onun Cənubi Qafqaz istiqamətində şansları nə qədərdir? Bu suallara cavablar maraq doğurur."Yaxın Şərqin şahmat taxtası": növbəti gediş kimindir"?(11) Məhz problemə belə yanaşma regionda yaranmış geosiyasi mənzərənin və maraqların elmi-siyasi təhlilinin aparılmasını zəruri edir.

"Geosiyasi maraqların toqquşduğu arena: Yaxın Şərq və hadisələrin pərdəarxası" məqaləsinin müəllifi E.Şıxəliyev regionda gedən geosiyasi mübarizəni təhlil edərək 2018-ci ilin mayında yazırdı ki, Yaxın Şərqdə geosiyasi maraqların toqquşması gedişində formalaşmaqda olan qütbləşmə özünü getdikcə daha aydın şəkildə göstərməyə başlamışdır. Belə ki, ABŞ və müttəfiqləri regionda terrorla mübarizə əvəzinə, terror vasitəsi ilə xarici maraqlarını reallaşdırır, müxtəlif terror təşkilatları yaradaraq onlara qarşı mübarizə adı ilə mövqelərini möhkəmləndirirdilər. Şübhəsiz, məqam yetişdiyi zaman fərqli adlar altında yeni terror təşkilatlarının da ortaya çıxacağı istisna deyildir. Bütün bunların ortaq məxrəcində isə Regionda yaranmış xaos şəraiti Qərbə neft bölgələrini ələ keçirmək və geosiyasi maraqları təmin etməyə xidmət edir. Bu mübarizədən məğlub çıxmaq "amerikan imperializminin yaratmağa çalışdığı Yeni Dünya Nizamının dağılması, rus imperializmi baxımından Yaxın Şərqdən uzaqlaşdırılmaq, Avropa ölkələri baxımından təbii ehtiyatlara möhtac qalmaq və nüfuzunu itirmək, İran baxımından "şiə hilalı" strategiyasından əl çəkmək, Türkiyə baxımından bölgəyə nəzarəti itirmək və hətta parçalanmaq təhlükəsi anlamına gəlir" (9).

Rusiya və müttəfiqlik etdiyi dövlətlər qütbləşmənin ikinci tərəfində dururlar, birincidən fərqli olaraq bu qrup qurama xarakter daşıyır və üst-üstə düşən maraqlar üzərində köklənmişdir. Bu qruplaşmalar arasında geosiyasi mübarizə "ərəb baharından" sonra Suriya, Yəmən və Liviya uğrunda gedir. Yaxın Şərqdə geosiyasi konfiqurasiyanın analizini verən Z.Axundova görə, hazirda belə müharibə Suriyada yaşanır və əslində etnik və dini-məhzəb konteksində regionda vətandaş müharibəsi gedir. Müəllif bütövlükdə regionun bütün ölkələrində yaranmış mürəkkəb vəziyyətin təhlilini verərək hadisə və prosesləri bir-biri ilə bağlayır (4).

Qeyd edək ki, müxtəlif informasiya kanallarından toplanmış fakt və materiallarınelmi-siyasi analizi göstərir ki, qeyd edilən qütblərin ümumi maraqları ilə yanaşı, qütblərdə təmsil olunan dövlətlərin hər birinin regionda fərqli maraqları da vardır. Yaranmış vəziyyətdə İran və Türküyənin maraqları üzərində ayrıca dayanmağa dəyər. Belə ki, İran Rusiya ilə, Türkiyə isə Qərb bloku ilə birgə hərəkət edir və əgər ciddi bir proses baş verməsə belə vəziyyət davam edəcəkdir.

XXI əsrin əvvəllərində baş vermiş 2008-2012-ci illər dünya iqtisadi böhranı və "ərəb baharı" hadisələrinin Yaxın Şərqdə geosiyasi vəziyyətə təsiri dünya mətbuatının gündəmində yer alan başlıca məsələlər idi. Azərbaycanın "Səs", "İki sahil", "Respublika", "Bakı-xəbər", "Şərq", "Ekspres", "525-ci qəzet", "Yeni Azərbaycan", Rusiyanın «Коммерсант», «Российская газета», «Аргументы и факты», «Независимая газета», « Московская правда», Türkiyənin "Milliyyet", "Hüriyyet", "Dünya", "Orta doğu", "Habertürk", "Takvım" kimi mətbuat orqanlarının səhifələrində Yaxın Şərqdə baş verməkdə olanlar təhlil edilir, dəyişən maraqların mahiyyəti açılır, siyasi proqnozlar verilirdi. "Respublika" qəzetinin "Xarici xəbərlər" rubrikasında və "Ekspress" qəzetində Yaxın Şərq regionunda getməkdə olan proseslərə aydınlıq gətirilir, xüsusi olaraq qeyd edilirdi ki, Rusiya, Çin və İran həm ayrı-ayrılıqda, həm də ümumi maraqlarla hərəkət edir, regionda geosiyasi maraqlar ugurunda mubarizəyə hesablanmış addımları atırlar. "Yaxın Şərqdə nisbi sabitliyin pərdə arxası" sərlövhəli yazıda deyilirdi ki, "hələlik ən çox rahatsızlıgı İran keçirir, çünki bu ölkə regiondakı geosiyasi vəziyyətin mürəkkəbliyindən həyəcanlı vəziyyətdədir. İran bundan sonrakı dalğanın qarşısında hədəf olaraq özünü görür və Suriyadakı rejimi ayaqda saxlamaq üçün var gücü ilə mübrizə aparır. Hazırda embarqolardan əziyyət çəkən İran iqtisadiyatı böhranlı dövr yaşayır və belə bir iqtisadi sistemlə İran Suriyadakı rejimə sonuna qədər dəstək verə bilməyəcəkdir" (13; 14).

Türkiyə mətbuatının 2013-2018-ci illər dövrünə dair xəbər və materiallardan göründüyü kimi, Türkiyə Prezidenti R.T.Ərdoğan müxtəlif tədbirlərdə çıxışlarında və mətbuat konfranslarında verdiyi müsahibələrdə birmənalı olaraq "Bəşər Əsəd getməlidir" tezisini səsləndirirdi (10), halbuki sonrakı

dövrlərdə bu tezis nəinki Türkiyə prezidentinin dilindən bir daha səsləndirilmirdi, əksinə qəzetlərin manşetinə çıxarılan xəbər başlıqlarında iki ölkə prezidentlərinin mümkün ikitərəfli görüşlərinin keçirilməsi haqqında anonslara rast gəlinməyə başlamışdı.

Yaxın Şərqin son iyirmi illik tarixinin analizi göstərir ki, burada hegemon kimi çıxış etmək istəyən ABŞ-ın regionda mövqelərinin zəifləməsi fonunda yeni aktorların – Çin, Rusiya, Türkiyə və İranın təsiri artmaqdadır. Moskva, Tehran və Ankaranın Liviya və Suriyada vəziyyəti nəzarət altına alması Qərbi kifayət qədər narahat etməkdədir. Vaşinqtonun regional siyasətinin başlıca hədəfi isə İsrail və ərəb ölkələri arasında münasibətlərin normallaşmasına yönəldilmişdi. Məhz ABŞ diplomatiyasının səyləri nəticəsində ilk addım olaraq, Birləşmiş Ərəb Əmirlikləri İsraillə diplomatik münasibətlər qurduğunu və müxtəlif sahələrdə əməkdaşlıq edəcəyini açıqladılar. Bunun ardından ABŞ-ın Dövlət katibi Mayk Pompeo və Prezident Donald Trampın Yaxın Şərq üzrə müşaviri Cared Kuşnerin ərəb dövlətlərinin liderləri ilə danışıqları alındı ki, bunun nəticəsində tezliklə 22 ərəb ölkəsi İsraillə münasibətləri normallaşdırmaq qərarına gəldilər. Əldə olunmuş razılığa əsasən İsrail Fələstin torpaqlarını ilhaqını dayandırandırmaq, ərəb əhalisinin hüquqlarına hörmət və ərəb torpaqlarını mütamadi olaraq atəşə tutmaqdan imtina etmək qərarına gəldiyini bildirdi.

ABŞ-ın "ərəb baharı" hadisələrindəki uğursuzluğu və İŞİD vasitəsi ilə istədiklərinə nail ola bilməməsi Ukrayna ssenarisini şərtləndirdi. Qərb bununla postsovet məkanının içərisinə girmək və Rusiyanı Yaxın Şərqdən uzaqlaşdırmağı hədəfləmişdi, ancaq əvəzində Türkiyənin regionda güclü müqaviməti ilə qarşılaşdı, Rusiya-Türkiyə münasibətlərini müttəfiqlik səviyyəsinə yüksəltdi. Bu münasibətlərin pozulması üçün 2015-ci ilin noyabrında Türkiyə sərhəddində Su-24 təyyarəsinin vurulması ilə bağlı törədilən qəza və Türkiyəni cəzalandırmaq, fetoçuları hakimiyyətə gətirmək üçün 2016-cı ilin iyununda dövlət çevrilişinə edilən cəhd ABŞ-ın Yaxın Şərqdə mövqelərinə ciddi zərbə vurdu. Təsadüfi deyildi ki, Türkiyənin Baş naziri B.Yıldırım 2018-ci il iyunun 19-da İzmir şəhərindəki tədbirdə çıxış edərkən qeyd etmişdi ki, imperialist qüvvələr Orta Şərqdə sərhədləri dəyişmə cəhdləri aparırlar və bu Türkiyənin hazırda tarixinin heç bir dövründə olmadığı qədər güclü olmağa vadar edir. "Çünki bölgəmizdə bir plan var,bu plan cənub sərhədlərimizdə (Suriya tərəfdə) bir terror dövlətinin qurulmasına hədəflənmişdir. İmperiya qüvvələri burada yüz il sonra yenidən bir oyunu həyata keçirmək istəyirlər. Bu oyunu Türkiyə Silahlı Qüvvələri Suriyada keçirdiyi "Fərat Qalxanı" və "Zeytun budağı" əməliyyatları ilə pozdu və Suriyanın şimalında təqribən 4 min kvadrat kilometrlik sahəni terrordan azad edərək nəzarət altına aldı" (7). Yaranmış şəraitdə Türkiyənin İraqın şimalında Qəndilə qədər uzanan bölgəyə nəzarəti ələ keçirmək üçün 2018-ci ilin payızından etibarən davamlı hərbi əməliyyatlara başlaması Qərbin ciddi şəkildə narazılığına baxmayaraq Rusiya və İran tərəfindən sükutla qarşılandı.

Nəticə. Beləliklə, Yaxın Şərqdə cərəyan etməkdə olan proseslərin elmi-politoloji təhlili göstərir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində regionda qüvvələr müvazinətinin pozulması və yeni tarazlıq vəziyyətinin yaranmaması, habelə Qərbin müxtəlif layihələri regionda reallaşdırmaq yolu ilə hegemonluğa çalışması siyasəti iflasa uğradı. Regionda yaradılmış xaos tədricən idarəolunmaz hala gəlməyə başladı. Rusiya-Ukrayna müharibəsində sürətli qələbə ilə bağlı Qərbin gözləntiləri özünü doğrultmadı. Bu müharibənin gedişində İranın Rusiyaya açıq və örtülü şəkildə hərbi-siyasi dəstəyi, Türkiyənin Rusiya ilə anlaşma şəraitində Yaxın Şərqdə mövqelərini daha da möhkəmləndirməsi regiona münasibətdə Qərbi daha da aqressivləşdirirdi. Ehtimal olunan ssenari ondan ibarətdir ki, Yaxın Şərq fırtınalar və kataklizmlərlə dolu gələcəyə doğru getməkdədir...

ƏDƏBİYYAT

1. ABŞ-ın Yaxın Şərq siyasəti: dəyişikliklər gözlənilirmi? / Səs qəz., 2012, 27 sentyabr
2. ABŞ-ın Yaxın Şərq siyasəti:yalanın təntənəsi / 525-ci qəzet, 2015, 29 iyun
3. Araş. Gör. Altuğ Günal. Büyük Ortadoğu Projesi Ve Türkiye. URL: https://dergipark.org.tr/tr/download/article-file/556861 [01.04.2024].
4. Axundov Z. Geosiyasi mərkəzlərin Yaxın Şərq siyasəti / Xalq qəz., 2013, 25 yanvar.
5. Böyük Orta Şərq layihəsi bitdimi.../ Yeni müsavat qəz., 2019, 10 yanvar.
6. Məqalənin orjinalı müəllifin arxivindədir.

7. "Münbiçdən sonra Kobani, Qamışlı və Haseke də terror təşkilatlarından azad ediləcək"Baş nazir Binəli Yıldırım 19.06.2018. URL: /https://www.trt.net.tr/azerbaycan/turkiye-3/2018/06/19/ munbicd-n-sonra-kobani-qamisli-v-haseke-d-terror-t-skilatlarindan-azad-edil-c-k-995359 [01.04.2024].
8. Soltanova H.B., Məmmədov C.A. «Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası» (dərslik). Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2008, 304 s.
9. Şıxəliyev E.A. Geosiyasi maraqların toqquşduğu arena: Yaxın Şərq və hadisələrin pərdəarxası. URL: http://newtimes.az/az/politics/5652 [01.04.2024].
10. Türkiye Suriyada hakimiyyetin deyişmesinin taraftarıdır / Milliyyet qəz., 2018, 11 dekabr.
11. Türkiyə Yaxın Şərqdə: geosiyasi ziddiyyətlərdən yaranmış qeyri-müəyyənliklər / Səs qəz., 2013,24 dekabr. URL: https://sesqazeti.az/news/analytics/ 384409.html [01.04.2024].
12. Yaxın Şərq xəritəsi Yeni Dünya Düzənində nəzərdə tutulan kimi olacaqmı? URL: https://dusunek.com/tag/boyuk-yaxin-s%C9%99rq-layih%C9%99si/ [01.04.2024].
13. Yaxın Şərqdə nisbi sabitliyin pərdə arxası / Ekspress qəz., 2013, 16 may.
14. Xarici xəbərlərin anonsları / Respublika qəz., 2013, 4 iyun.
15. Zülküf Yılmaz. İzrailin Ortadoğu Projesinde neler var. URL: https://www.pau.edu.tr/zyilmaz/tr/sayfa/israilin-ortadogu-projesinde-neler-var [01.04.2024].
16. Ахмед Маджданлани. Ближний Восток и политика великих держав. URL: https://ru.valdaiclub. com/a/highlights/blizhniy-vostok-i-politika-velikikh-derzhav/30.03.2021 [01.04.2024].
17. Большой Ближний Восток как новый феномен геополитической реальности современного мира. URL: http://csef.ru/ru/oborona-i-bezopasnost/340/bolshoj-blizhnij-vostok-kak-novyj-fenomen-geopoliticheskoj-realnosti-sovremennogo-mira-8719 [01.04.2024].
18. Речь товариша Наримана Нариманова на Первом съезде Восточных народов / Газ. Коммунист, 1920, 1 сентября.
19. РСМД: непростые дни Ближнего Востока. URL: https://russiancouncil.ru/ analytics-and-comments/columns/middle-east/neprostye-dni-blizhnego-vostoka/22 июля 2022 г. [01.04.2024].

ГУРБАН МАМЕДОВ
доцент Бакинского Государственного Университета

КОНФЛИКТ ГЕОПОЛИТИЧЕСКИХ ИНТЕРЕСОВ НА БЛИЖНЕМ ВОСТОКЕ В ПОВЕСТКЕ ДНЯ НАЦИОНАЛЬНОЙ ПРЕССЫ

На рубеже тысячелетий неслучайно «большие игры» развернулись вокруг ближневосточного региона, имеющего стратегические и геополитически важные позиции, играющего важную роль в обеспечении мира энергоресурсами, расположенного на узел международных и региональных линий связи и является крупным рынком сбыта для развитых стран Запада. Воюющие государства мира развернули беспощадную борьбу за раздел энергоресурсов, сырьевых источников и рынков сбыта региона, которая велась всевозможными военными и политическими средствами. Хотя в этом разделе участвовали три основные страны - США, Китай и Россия, США старались не утратить своей гегемонии и вообще вытеснить другие страны из региона, используя для этого различные проекты, методы и средства. Процессы, происходящие в регионе, были и остаются в центре внимания всех мировых СМИ, социальных сетей, в том числе национальной прессы. Несмотря на определенные недостатки, при проведении аналитического анализа национальная пресса, с одной стороны, говорила о геополитических интересах Азербайджанской Республики, а с другой стороны, пыталась анализировать происходящее, проявляя нейтральную позицию, чтобы исследование проводится в соответствии с поставленной в статье целью.

Ключевые слова: Ближний и Средний Восток, великие державы, национальные СМИ, геополитическая конкуренция, энергоресурсы, демократия, изменение границ, военно-политическая борьба, новый баланс сил, несбывшиеся мечты.

GURBAN MAMMADOV
Docent of Baku State University

THE CONFLICT OF GEOPOLITICAL INTERESTS IN NEAR EAST ON THE AGENDA OF MEDIA

İt was no coincidence that the "great games" unfolded around the Middle East region at the turn of the millennium, which has strategic and geopolitically important positions, playing an important role in providing the world with energy resources, which located at the hub of international and regional communication lines and is a major market for developed Western countries. The world states who wage the war have launched a severe struglle for the division of energy resources, raw material sources and markets in the region which was carried out by all kinds of military and political means. Although in this section three main countries USA, China and Russia were participated, United States tried not to lose its hegemony and generally oust other countries from the region by using various projects, methods and means. The processes have been taking place in the region and remain the focus of attention of all world media, social networks, including the national press. Despite certain shortcomings, when conducting analytical analysis, the national press on the one hand, spoke about the geopolitical interests of the Republic of Azerbaijan and on the other hand, have tried to analyze what was happening, showing a neutral position, so that the research was carried out in accordance with the purpose set in the article.

Keywords: Near and Middle East, Great powers, National media, geopolitical competition, energy resources, democratic, changing of boundaries, military political struggle, new balance of power, unfulfilled dreams.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: s.e.ü.f.d. Afət Güləliyeva, s.e.d. Sevinc Yusifzadə.